**“Expressbank” Açıq Səhmdar Cəmiyyəti**
**tərəfindən göstərilən ödəniş xidmətlərinə dair**
**Ödəniş Xidməti İstifadəçisinə Təqdim Olunan Məlumatlar**
(“**Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında**” AR Qanunu - bundan sonra “Qanun”)

| | | |
|---|---|---|
| 1. | Ödəniş xidməti təchizatçısının adı və hüquqi ünvanı, elektron poçt ünvanı | “Expressbank” Açıq Səhmdar Cəmiyyəti,<br>Bakı, Azərbaycan, AZ1052, Atatürk pr., Yusif Vəzir Çəmənzəminli küç., 134 C<br>office@expressbank.az |
| 2. | Ödəniş xidməti təchizatçısına verilmiş lisenziyanın tarixi, nömrəsi və lisenziya verən qurumun adı | Lisenziyanın tarixi: 30 dekabr 1992<br>Lisenziyanın nömrəsi: 119<br>Lisenziyanı verən qurumun adı: Azərbaycan Respublikası Mərkəzi Bankı |
| 3. | Göstərilən ödəniş xidmətləri | • ödəniş hesabı üzrə pul vəsaitinin nağd formada mədaxili və (və ya) məxarici əməliyyatlarının aparılması;<br>• kredit köçürməsi, ödəniş kartı və ya digər oxşar ödəniş alətləri ilə ödəniş əməliyyatlarının icrası;<br>• ödəniş alətlərinin emissiyası və (və ya) ödəniş əməliyyatının ekvayrinqi;<br>• pul köçürməsi<br>• ödəniş əməliyyatlarının aparılması üçün vasitəçilik xidməti və digər ödəniş xidmətləri |
| 4. | Göstərilən ödəniş xidmətləri üzrə ödəniş sərəncamının düzgün verilməsi və ya icra edilməsi üçün tələb olunan məlumatlar və ya unikal eyniləşdirici | Ödəniş sərəncamının düzgün verilməsi və ya icra edilməsi üçün tələb olunan məlumatlar:<br>• Adı, soyadı, ata adı<br>• FİN kod<br>• Şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi<br>• Mobil nömrə<br>• Doğum tarixi<br>• Hesab nömrəsi<br>• Kart PAN nömrəsi<br>• Alias (telefon nömrəsi, VÖEN, elektron poçt ünvanı)<br>• Sərəncamın icrası üçün əməliyyata uyğun olaraq tələb edilən digər məlumatlar<br><br>Ödəniş sərəncamının ödəniş terminalları üzrə düzgün verilməsi üçün tələb olunan məlumatlar:<br>• Müştəri kodu;<br>• FİN kod;<br>• Bank tərəfindən tələb olunduğu təqdirdə digər məlumatlar.<br><br>Qüsurlu ödəniş sənədləri icraya qəbul edilmir. Ödəniş sənədi aşağıdakı hallarda qüsurlu sayılır: |

| | | |
|---|---|---|
| | | • “Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nın 3.7-ci bəndində göstərilmiş müddət (3 iş günü) keçdikdə;<br>• ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda;<br>• ödənişin təyinatı və əsası göstərilmədikdə;<br>• rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda;<br>• üzərində düzəliş və ya pozulmalar edildikdə;<br>• nüsxələr arasında uyğunsuzluq olduqda;<br>• ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar arasında uyğunsuzluq olduqda;<br>• möhür olmadıqda və ya uyğun gəlmədikdə (imza və möhür nümunələri vərəqəsində nəzərdə tutulduğu halda).<br>Bu tələb müvəqqəti olaraq möhür olmadan ödəniş sənədlərinin rəsmiləşdirildiyi hallara şamil edilmir |
| 5. | Ödəniş sərəncamının verilməsi, ondan imtina və ödəniş sərəncamının geri götürülməzliyi qaydası | - Müştəri ödəniş sərəncamına dair məlumatları Banka təqdim etdikdə və Müqavilə üzrə şərtlər təmin edildikdə ödəniş əməliyyatı avtorizə edilmiş (razılıq verilmiş) hesab olunur;<br>- Ödəniş sərəncamından ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən anadək istənilən vaxt imtina edilə bilər. Dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina nəticəsində ödəyicinin seçimindən asılı olaraq ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları avtorizə edilməmiş hesab edilir və icra olunmur.<br>- Müştəri Bank (ödəniş xidməti təchizatçısı) ilə ödəniş sərəncamının icra olunması üçün müəyyən günü razılaşdırdıqda, Müştəri (ödəniş xidməti istifadəçisi) ödəniş sərəncamını ən geci razılaşdırılmış gündən əvvəlki iş gününün sonunadək geri götürə bilər.<br>- Ödəniş əməliyyatı vasitəçi tərəfindən başlanıldığı halda, Müştəri vasitəçiyə ödəniş əməliyyatının başladılmasına razılıq verdikdən sonra ödəniş sərəncamını geri götürə bilməz.<br>- Ödəniş sərəncamının geri götürülməsi üzrə xidmət haqqı Bank (ödəniş xidməti təchizatçısı) ilə Müştəri (ödəniş xidməti istifadəçisi) arasında bağlanılan müqavilədə və tariflərdə nəzərdə tutulduğu halda tətbiq edilir. |

| | | |
|---|---|---|
| 6. | Ödəniş sərəncamının icraya qəbulu vaxtı və icra müddəti | - Bank ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müştəri ilə bağlanılmış müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir;<br>- Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur;<br>- Bank ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra edir;<br>- Ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.<br>- Ödəniş xidmətinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, Müştərinin xeyrinə Banka daxil olan pul vəsaiti həmin əməliyyat günü Müştərinin ödəniş hesabına mədaxil edilir və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi müddəti Bankla ilə Müştəri arasında bağlanılmış müqavilə ilə tənzimlənir.<br>- Ödəniş xidmətləri ödəniş terminalları vasitəsilə göstərdikdə ödəyicidən qəbul olunmuş pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın ödəniş hesabına köçürülür. |
| 7. | Ödəniş alətlərindən istifadə edildikdə (kart, tətbiq, POS terminal, internet sayt, ödəniş terminalı və s.) onların xüsusiyyətləri | Kartın mülkiyyəti Banka aiddir. Bank Kartı geri ala, istifadəsini dayandıra bilər, habelə vaxtı bitmiş Kart(lar)ı yenisi ilə əvəz etməyə bilər. Müştəri Kartın itməsi, oğurlanması və ya üzərində təhriflərin edilməsinə görə məsuliyyət daşıyır. Kart itirildikdə və ya oğurlandıqda, Müştəri tərəfindən Bankın Məlumat Mərkəzinin "132" telefon nömrəsinə təcili xəbər verilməlidir. Müştəri bu xəbərdən sonra Kartın etibarsız sayılacağını qəbul edir və Bank tərəfindən yeni bir Kartın verilməsi ilə əlaqədar bütün xərclərin ödənilməsini öhdəsinə götürür.<br>POS-terminal Bankın mülkiyyətidir. Müştəri Pos-terminalın zədələnməsi, itirilməsi, oğurlanması, habelə məhv olmasına görə maddi məsuliyyət daşıyır. Bankla Bank, Express24 vasitəsi ilə Müştəriyə onun bank hesabları üzrə Qanunvericiliklə icazə verilən istənilən Əməliyyat(lar)ın aparılması, Bank Xidmətlərinə dair mülki-hüquqi əqdlərin Asan İmzadan |

| | | |
|---|---|---|
| | | istifadə etməklə bağlanması, Bankla sənəd və məlumat mübadiləsi, Banka Elektron Sifarişlərin təqdim edilməsi, Elektron Ödəniş Tapşırığının təqdim edilməsi üzrə xidmətlərin həyata keçirilməsini təmin edir. Müştəri, müqavilədə nəzərdə tutulan qaydada və Bankın texniki imkanları çərçivəsində Banka məxsus ödəniş terminalları vasitəsilə üçüncü şəxslərə vəsait göndərə və ya pul köçürməsi həyata keçirə, habelə kredit ödənişi və ya digər ödənişlər (komunal, rabitə, dövlət büdcəsinə və s. ödənişlər) həyata keçirə bilər. |
| 8. | Ödəniş xidmətlərinin göstərilməsi üçün tutulan xidmət haqları və onların ödənilməsi qaydası | Bankın qüvvədə olan tarifləri Bankın Tarif dərəcələri ilə müəyyən edilir. Müvafiq Tarif dərəcələri ilə Bankın rəsmi internet ünvanından (www.expressbank.az) məlumat əldə edə bilərsiniz. Xidmət haqqı Müştəri tərəfindən müxtəlif kanallar vasitəsilə (tətbiq, terminallar, filial və s.) ödənilə və ya Müqavilədə nəzərdə tutulmuş hallarda akseptsiz qaydada Müştərinin hesabından silinə və ya Müştəriyə çatası vəsaitdən tutula bilər. |
| 9. | Valyuta mübadiləsi məzənnəsi və valyuta mübadiləsi məzənnəsi üzrə dəyişikliklərin tətbiqi | Valyuta mübadiləsi Bankın müvafiq əməliyyatın aparıldığı günə qüvvədə olan valyuta mübadilə məzənnələri ilə tənzimlənir. Valyuta mübadiləsi məzənnələri Bankın rəsmi internet səhifəsində (www.expressbank.az) elan edilir. Valyuta mübadiləsi məzənnəsi hər gün dəyişə bilər. Valyuta mübadiləsi məzənnəsinin dəyişikliyi haqqında xəbərdarlıq müddəti tətbiq olunmur. |
| 10. | Məlumatların və müraciətlərin ötürülməsi üzrə əlaqə vasitələri (əlaqə telefonu, elektron poçt ünvanı və s.), tətbiq edildikdə ödəniş xidməti istifadəçisinin avadanlıqlarına münasibətdə texniki tələblər | Aşağıdakı kanallar vasitəsilə əlaqə saxlayaraq müraciətlər və məlumatlar Müştəri tərəfindən Banka göndərilə bilər.<br><br>- Telefon: 132<br>- Elektron poçt ünvanı ***: info@expressbank.az***<br>- Sosial şəbəkələr :<br>• Facebook: www.facebook.com/expressbank<br>• Instagram: www.instagram.com/expressbank<br>• LinkedIN:www.linkedin.com/company/expressbankasc<br>• Telegram: https://t.me/expressbank_asc<br>İnternet Bankçılıq platforması üzərindən çat bot<br><br>- Express24 Mobil tətbiqi vasitəsilə |

| | | |
|---|---|---|
| 11. | Qanunun 16 – 18-ci və 25-ci maddələrində müəyyən edilmiş məlumatların təqdim edilməsi müddəti (dövriliyi); | - Bank tərəfindən ödəniş əməliyyatlarının icra edilməsindən əvvəl ödəniş xidmətləri üzrə Qanunla tələb edilən məlumatlar Bankın rəsmi internet ünvanında (www.expressbank.az) yerləşdirilmişdir.<br>- Bank ödəniş sərəncamını icra etdikdən sonra Qanunla tələb edilən məlumatları müxtəlif kanallar vasitəsilə (sms, mobiltətbiq, rəsmi internet səhifəsi və s) dərhal Müştəriyə təqdim edir.<br>- Müqavilədə, Məlumatlandırma Formasında, Tariflər və Valyuta Məzənnəsində əlavə və ya dəyişikliklər Bankın rəsmi internet səhifəsində yerləşdirildiyi andan Müştərinin edilən əlavə və dəyişikliklər barədə məlumatlandırılması anı başa düşülür. Müqavilədə, Məlumatlandırma Formasında və Tariflərdə edilən əlavə və dəyişiklik Bankın internet səhifəsində yerləşdirildiyi tarixdən 30 (otuz) təqvim günü sonra, Valyuta Məzənnəsində olan dəyişiklik isə Bankın internet səhifəsində yerləşdirildiyi tarixdən qüvvəyə minir.<br>- Bu müddətdə Müştəri (ödəniş xidməti istifadəçisi) bu dəyişikliklərlə bağlı öz etirazını bildirmədikdə və xidmətdən istifadə etdiyi təqdirdə, bu dəyişikliklər müştəri (ödəniş xidməti istifadəçisi) tərəfindən qəbul olunmuş hesab edilir. valyuta mübadiləsi məzənnəsində edilən dəyişikliklər və Müştəri üçün daha əlverişli faiz dəyişiklikləri xəbərdarlıq müddət tətbiq edilmədən qüvvəyə minir.<br>- Müştəri ödəniş əməliyyatının icrasından sonra 6 (altı) ay müddətindən gec olmayaraq hər hansı avtorizə edilməmiş və ya səhv icra olunmuş ödəniş əməliyyatlarını müəyyən etdikdə bu barədə ödəniş xidməti təchizatçısını dərhal məlumatlandırmalıdır. Bank, Müştərini ödəniş əməliyyatının icrası haqqında Qanunda nəzərdə tutulmuş qaydada məlumatlandırmadığı halda bu müddət tətbiq edilmir. |

| | | |
|---|---|---|
| 12. | Ödəniş xidməti istifadəçisinin ödəniş alətinin təhlükəsizliyinin təmin edilməsi üzrə həyata keçirməli olduğu tədbirlər və bu Qanunun 38.1.3-cü maddəsinə uyğun olaraq ödəniş xidməti təchizatçısını məlumatlandırması qaydası; | - Müştəri<br>- kartın itməsi, oğurlanması, üzərində təhriflər edilməsi və üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısını almaq üçün bütün mümkün tədbirləri görməlidir;<br>- Kart və hesab məlumatlarını heç bir halda digər şəxslərlə bölüşməməlidir.<br>- Kartdan kartın emissiya və istifadəsi şərtlərinə uyğun olaraq istifadə etməlidir;<br>- Kartı əldə etdikdən dərhal sonra onun fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının təhlükəsiz saxlanmasını təmin etməlidir;<br>- kartın itirilməsini, oğurlanmasını və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasını müəyyən etdikdə kartı bloklaşdırmalıdır.<br>- kart itirildikdə, oğurlandıqda və ya səlahiyyəti olmayan şəxs tərəfindən istifadəsi müəyyən edildikdə ləngimədən kartı bloklaşdırmalıdır. Bu məqsədlə Müştəri tərəfindən Bankın Məlumat Mərkəzinə (Qaynar xətt: 132), yaxud Banka xidmət göstərən kart prosessinq təşkilatına (“Azərikard” MMC / çağrı mərkəzi: 194) müraciət olunmalıdır və ya mobil tətbiqi vasitəsi ilə kartı bloklaşdıra bilər. Müştəri tərəfindən məlumatların vaxtında verilməməsinə görə, eləcə də yuxarıda göstərilən hallarda kartdan istifadə etməklə aparılan əməliyyatlara görə Müştəri məsuliyyət daşıyır. |
| 13. | Ödəniş xidməti təchizatçısının bu Qanunun 37-ci maddəsinə əsasən ödəniş alətini bloklaşdırmaq hüququ üzrə şərtlər | Bank aşağıdakı hallarda Müştərinin ödəniş alətinin bloklaşdırmaq hüququna malikdir:<br>- ödəniş alətinin təhlükəsizliyinin təmin olunması;<br>- ödəniş alətinin dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması;<br>- ödəyicinin kredit xətti ayrılmış ödəniş alətləri üzrə öhdəliklərini yerinə yetirə bilməməsi təhlükəsinin qarşısının alınması və digər risklər baxımından birtərəfli qaydada müştərinin kartını bloklaşdırmaq və ya karta xidmət göstərilməsini dayandırmaq, birdəfəlik, gündəlik, həftəlik və aylıq əməliyyat limitlərini dəyişmək, kartın risk qrupunu dəyişmək və kartın üzərində digər sərəncam vermək hüququna malikdir.<br><br>- Bank Ödəniş alətinin bloklaşdırılması və bunun əsaslandırılmış səbəbi barəsində mümkün olduqda əvvəlcədən və ya ən geci bloklaşdırmadan dərhal sonra |

| | | |
|---|---|---|
| | | Müştərini məlumatlandırır, bu şərtlə ki, qanunla belə məlumatın verilməsi qadağan edilməsin.<br>- Bank ödəniş alətinin bloklaşdırılmasına səbəb olan hal aradan qalxdıqdan sonra ödəniş alətini blokdan çıxarmalı və ya yeni ödəniş aləti ilə əvəz etməlidir. |
| 14. | Ödəniş xidməti istifadəçisinin avtorizə edilməmiş və ya səhv icra edilmiş ödəniş əməliyyatı üzrə ödəniş xidməti təchizatçısını məlumatlandırması qaydası, habelə ödəniş xidməti təchizatçısının avtorizə edilməmiş ödəniş əməliyyatı üzrə öhdəlikləri | - Müştəri Bank tərəfindən həyata keçirilən ödəniş əməliyyatının icrasından sonra 6 (altı) ay müddətindən gec olmayaraq hər hansı avtorizə edilməmiş və ya səhv icra olunmuş ödəniş əməliyyatlarını müəyyən etdikdə bu barədə ödəniş xidməti təchizatçısını dərhal məlumatlandırmalıdır. Bank Müştərini ödəniş əməliyyatının icrası haqqında Qanunda nəzərdə tutulmuş qaydada məlumatlandırmadığı halda bu müddət tətbiq edilmir.<br>- Bank avtorizə edilməmiş ödəniş əməliyyatı haqqında Müştəridən bildirişi aldıqdan sonra Qanunda nəzərdə tutulan sübutları 5 (beş) iş günündən gec olmayaraq (ödəniş alətləri ilə ölkə xaricində aparılan əməliyyatlarda isə iştirakçısı olduğu ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilmiş müddətdə) təqdim edə bilmədikdə ödəniş əməliyyatının məbləğini ödəyiciyə növbəti iş günündən gec olmayaraq geri ödəyir.<br>- Bank avtorizə edilməmiş ödəniş əməliyyatının məbləğini bu ödəniş əməliyyatının icrası üçün Müştəridən tutulan bütün xidmət haqları ilə birgə geri ödəyir. |

| | | |
|---|---|---|
| | | - Müştəri ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə və ya ödəniş əməliyyatının səhv icra olunduğunu bildirdikdə, Bank ödəniş əməliyyatının autentifikasiya olunduğunu, düzgün qeydə alındığını, ödəniş əməliyyatı üzrə məbləğin Müştərinin müəyyən etdiyi ödəniş hesabına mədaxil edildiyini və ödəniş əməliyyatının texniki nasazlıq və ya Bankın digər nöqsanı nəticəsində təsirə məruz qalmadığını sübuta yetirməlidir.<br>- Müştəri icra olunmuş ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə, ödəniş alətinin istifadəsi faktı Müştərinin ödəniş əməliyyatını avtorizə etməsini və ya onun dələduzluq məqsədilə hərəkət etməsinə şübhə olmasını və ya Qanunun 38-ci maddəsi ilə müəyyən edilmiş vəzifələri qəsdən və ya kobud ehtiyatsızlıqdan yerinə yetirmədiyini sübuta yetirmək üçün kifayət deyildir. Bu halda Bank fırıldaqçılıq əməliyyatının baş verdiyini və ya Müştəri tərəfindən kobud ehtiyatsızlığın olunduğunu təsdiq edən aidiyyəti sübutları Müştəriyə təqdim etməlidir. |

| | | |
|---|---|---|
| 15. | Ödəniş xidməti təchizatçısının icra edilməmiş və ya səhv icra edilmiş ödəniş sərəncamı ilə bağlı Qanunun 31-ci və 32-ci maddələrində nəzərdə tutulmuş öhdəliyi | - Bank Müştəri tərəfindən verilən ödəniş sərəncamının icra olunmamasına, səhv icra edilməsinə, həmçinin pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə Müştəri qarşısında məsuliyyət daşıyır. Bu halda ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı səhv icra edilmiş, əsassız olaraq ödəniş hesabından silinmiş ödəniş əməliyyatı üzrə məbləği dərhal ödəyicinin ödəniş hesabına bərpa etməlidir.<br>- Bank ödəniş əməliyyatının vaxtında və düzgün icrasını sübut etdikdə, vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı vəsait alan qarşısında ödəniş əməliyyatının düzgün icra olunmasına görə məsuliyyət daşıyır. Bu halda vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı dərhal ödəniş əməliyyatı üzrə məbləği vəsait alanın ödəniş hesabına daxil etməli və ya ödəniş hesabı olmadıqda vəsait alanın sərəncamına verməlidir.<br>- Bank icra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatlarının icrası üzrə və ya pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə məsuliyyət daşıdığı halda, Müştəri tərəfindən ödənilən xidmət haqları və digər xərclərin məbləği də kompensasiya edilməlidir.<br>- Müştəri icra edilməyən, səhv icra edilən ödəniş əməliyyatlarına və ya pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə Bankdan ödəniş əməliyyatı üzrə məbləğ, xidmət haqqı və digər xərclərdən əlavə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinə uyğun olaraq faizlərin ödənilməsini tələb edə bilər.<br>- Bank Müştəri tərəfindən ödəniş sərəncamında səhv göstərilmiş məlumatlara görə ödəniş sərəncamının icra |

| | | |
|---|---|---|
| | | edilməməsi və ya səhv icra olunması üçün məsuliyyət daşımır.<br>- Ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı icra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatı üzrə və pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsi üzrə ödəyicinin tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləməli və bu haqda ödəyicini məlumatlandırmalıdır. Bu halda vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısına qanunla qadağan olunmayan məlumatları təqdim etməlidir.<br>- Ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı tərəfindən göndərilən ödəniş sərəncamının icra edilməməsinə və ya səhv icra edilməsinə görə məsuliyyət daşıyır. Bu halda, ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı səhv icra edilmiş ödəniş sərəncamı üzrə vəsaitin dərhal ödəyicinin ödəniş hesabına bərpa edilməsini və ya tələb olunduqda ödəniş sərəncamının düzgün icrasını təmin etməlidir.<br>- Vəsait alan tərəfindən ödəniş sərəncamı ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısına birbaşa təqdim edildikdə ödəniş xidməti təchizatçısı Qanuna uyğun olaraq məsuliyyət daşıyır.<br>- Ödəniş sərəncamı vəsait alan tərəfindən verildikdə, ona xidmət göstərən ödəniş xidməti təchizatçısı icra edilməmiş və ya səhv icra edilmiş ödəniş əməliyyatı üzrə vəsait alanın tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləməli və bu haqda vəsait alanı məlumatlandırmalıdır. |

| | | |
|---|---|---|
| 16. | Qanunun 33-cü maddəsinə uyğun olaraq ödəniş əməliyyatının məbləğinin geri ödənilməsi qaydası; | - Müştəri birbaşa debitləşmə üzrə ödəniləcək məbləğ limitini müəyyən etməlidir.<br>- Ödəyiciyə xidmət edən ödəniş xidməti təchizatçısı vəsait alan tərəfindən verilən ödəniş sərəncamı üzrə ödəyicinin müəyyən etdiyi ödəniş məbləğindən yüksək məbləğdə ödəniş əməliyyatı apardığı təqdirdə artıq ödənilmiş məbləği geri ödəməlidir.<br>- Ödəyici öncəki bənddə qeyd edilmiş halda vəsaitin onun ödəniş hesabından silindiyi tarixdən 2 (iki) ay müddətində ona xidmət göstərən ödəniş xidməti təchizatçısına müraciət edə bilər.<br>- Ödəniş xidməti təchizatçısı ödəniş əməliyyatı üzrə məbləğin geri ödənilməsi barədə ödəyicinin müraciəti daxil olduqdan sonra 5 (beş) iş günü müddətində artıq ödənilmiş məbləğin geri ödənilməsini təmin etməli və ya imtinanın səbəbləri haqqında əsaslandırılmış məlumatı ödəyiciyə təqdim etməlidir. |
| 17. | Ehtimal olunan və ya baş verən fırıldaqçılıq hadisəsi və ya təhlükəsizlik təhdidləri zamanı ödəniş xidməti təchizatçısı tərəfindən ödəniş xidməti istifadəçisinin təhlükəsiz formada məlumatlandırılması prosedurları. | Bank tərəfindən şübhəli əməliyyat, ehtimal olunan və ya baş verən fırıldaqçılıq hadisəsi və ya təhlükəsizlik təhdidləri zamanı Bank tərəfindən Müştərinin və aparılan əməliyyatların təhlükəsizliyini təmin etmək üçün əməliyyatlara nəzarət edilir və belə hallar aşkar edilikdə Müştəriyə müştəlif kanallar (sms, zəng, mobil tətbiq və s) vasitəsilə məlumat verilir. Bu halda təhlükəsizlik məqsədilə əməliyyatın icrası dayandırıla, kart bloklana və s. tədbirlər görülə bilər. Fırıldaqçılıq hadisəsi və ya təhlükəsizlik təhdidlərinin baş verməsinə dair Bank əsaslı sübutlara malik olduğu təqdirdə Müştəri ilə əlaqə saxlamadan ödəniş alətini bloklaşdırır və sonra əlaqə vasitələrindən biri ilə Müştərini məlumatlandırır. |

## ÖDƏNİŞ SƏRƏNCAMININ İCRASINDAN ƏVVƏL ÖDƏNİŞ XİDMƏTİ İSTİFADƏÇİSİNƏ TƏQDİM OLUNAN MƏLUMATLAR

| | | |
|---|---|---|
| 1. | Ödəniş sərəncamının icra edilməsi üçün tələb olunan məlumatlar və ya unikal eyniləşdirici | Ödəniş sərəncamının düzgün verilməsi və ya icra edilməsi üçün tələb olunan məlumatlar:<br>• Ad, soyad, ata adı<br>• FİN kod<br>• VÖEN<br>• Şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi<br>• Mobil nömrə<br>• Doğum tarixi<br>• Hesab nömrəsi<br>• Kart pan nömrəsi<br>• Sərəncamın icrası üçün əməliyyata uyğun olaraq tələb edilən digər məlumatlar<br><br>Qüsurlu ödəniş sənədləri icraya qəbul edilmir.<br>Ödəniş sənədi aşağıdakı hallarda qüsurlu sayılır:<br>• "Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda"nın 3.7-ci bəndində göstərilmiş müddət keçdikdə;<br>• ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda;<br>• ödənişin təyinatı və əsası göstərilmədikdə;<br>• rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda;<br>• üzərində düzəliş və ya pozulmalar edildikdə;<br>• nüsxələr arasında uyğunsuzluq olduqda;<br>• ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar arasında uyğunsuzluq olduqda;<br>• möhür olmadıqda və ya uyğun gəlmədikdə (imza və möhür nümunələri vərəqəsində nəzərdə tutulduğu halda).<br>Bu tələb müvəqqəti olaraq möhür olmadan ödəniş sənədlərinin rəsmiləşdirildiyi hallara şamil edilmir. |
| 2. | Ödəniş sərəncamının icra müddəti | - Bank ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra edir;<br>- Bank ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müştəri ilə bağlanılmış müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir;<br>- Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş |

| | | |
|---|---|---|
| | | sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur;<br>- Ödəniş xidmətləri ödəniş terminalları vasitəsilə göstərildikdə ödəyicidən qəbul olunmuş pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın ödəniş hesabına köçürülür;<br>- Ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir;<br>- Ödəniş xidmətinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, digər hallarda Müştərinin xeyrinə Banka daxil olan pul vəsaiti həmin əməliyyat günü Müştərinin ödəniş hesabına mədaxil edilir və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılır.<br>- Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi müddəti Müştəri ilə Bank arasında bağlanılmış müqavilə ilə tənzimlənir. |
| 3. | Ödəniş xidmətinin göstərilməsi üçün tutulan haqlar | Bankın qüvvədə olan tarifləri Bankın Tarif dərəcələri ilə müəyyən edilir. Müvafiq Tarif dərəcələri ilə Bankın rəsmi internet ünvanından (www.expressbank.az) məlumat əldə edə bilərsiniz. Xidmət haqqı Müştəri tərəfindən müxtəlif kanallar vasitəsilə (mobil tətbiq, terminallar, filial və s.) ödənilə və ya Müqavilədə nəzərdə tutulmuş hallarda akseptsiz qaydada Müştərinin hesabından silinə bilər. |
| 4. | Valyuta mübadilə məzənnəsi | Müvafiq əməliyyatın aparıldığı günə qüvvədə olan valyuta mübadilə məzənnəsi Bankın rəsmi internet səhifəsində (www.expressbank.az) elan edilir. |
| 5. | Nəzarət orqanının əlaqə məlumatları | Azərbaycan Respublikasının Mərkəzi Bankı:<br>Qaynar xətt: (+994 12) 966 Tel.: (+994 12) 493 11 22;<br>Faks: (+994 12) 493 55 41,<br>Elektron poçt ünvanı: mail@cbar.az |